# Azərbaycan SPECA-ya üzv ölkələrlə əlaqələri genişləndirir

## Əsas prioritet iqtisadi və ticari münasibətlərin möhkəmləndirilməsidir



Bakı daha bir mötəbər tədbirə evsahibliyi edir. Noyabrın 22-də "Bakı-Ekspo" Mərkəzində Prezident İlham Əliyevin iştirakı ilə Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərginin açılışı baş tutdu.

Sərgidə "Made in Azerbaijan" markası ilə istehsal olunan məhsullar nümayiş etdirilir. Bura Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və "ABAD"çı sənətkarların hazırladıqları əl işləri daxildir.

Sərginin əhəmiyyəti barədə "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov qeyd edib ki, Azərbaycan SPECA ölkələri ilə əlaqələri genişləndirir. Onun sözlərinə görə, son illər Azərbaycanla üzv ölkələr arasında, eləcə də həmin dövlətlərin öz aralarında kifayət qədər ciddi iqtisadi münasibətlərin formalaşması müşahidə olunur: "Bu, ondan xəbər verir ki, SPECA-ya üzv olan ölkələrlə münasibətlərin genişləndirilməsi prioritetdir. Eyni zamanda SPECA-nın sərgisinin məhz Azərbaycanda keçirilməsi, Bakının Zirvə toplantısına evsahibliyi etməsi bu təşkilata üzv olan ölkələr arasında münasibətlərin dərinləşməsindən xəbər verir. Eləcə də bu istiqamətdə mövcud potensialın təqdim olunması müşahidə olunur".

Deputat bildirib ki, bu sərgi birmənalı olaraq Azərbaycan və SPECA-ya üzv olan dövlətlər arasında imkanların təqdim edilməsi baxımından çox vacibdir. Digər tərəfdən, bu, həm də iştirakçı ölkələrin iqtisadi imkanlarını nümayiş etdirməsinə imkan verir. Proqram üzvləri arasında yeni əməkdaşlıqlar, yeni layihələr, birgə investisiyaların həyata keçirilməsi imkanları yaranır.

V.Bayramov vurğulayıb ki, Bakıda keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisi ölkələr arasında ticarət əlaqələrinin genişləndirilməsinə zəmin yaratmaqla yanaşı, üzv dövlətlər arasında yeni əməkdaşlıq imkanları deməkdir. "Bu, bir daha təsdiq edir ki, proqrama üzv ölkələr arasında əlaqələrin gücləndirilməsi, bu istiqamətə yeni sərmayə qoyuluşlarının həyata keçirilməsi, davamlı şəkildə iqtisadi və ticarət əlaqələrinin möhkəmlənməsi prioritetdir. Sərgi növbəti dövrdə də ölkələr arasında münasibətlərin dərinləşməsinə xidmət edəcək", - deyə deputat əlavə edib.

Xatırladaq ki, proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama 2002-ci ildə qoşulan ölkəmiz bu illər ərzində birliyin fəal üzvlərindən biri kimi çıxış edib. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 25 noyabr, № 257.- S.10.